**MƏHƏRRƏM ZÜLFÜQARLI**

# Bakı Kommunasının anti-Azərbaycan fəaliyyəti

**Kitab Azərbaycan Turizm və Menecment Universiteti Elmi Şurasının 30 aprel 2019-cu il tarixli iclasının ( Protokol № 6) qərarı ilə nəşr olunub**

**Bakı 2019**

**Müəllif: t.ü.e.d.,prof. Məhərrəm Zülfüqarlı**

**Elmi redaktor: t.ü.e.d.,prof., Dövlət Mükafatı Laureatı Kərim Şükürov**

**Rəyçilər: f.ü.e.d., prof. Zaur Bağırov**

**t.e.n., dos. Bahadır Bilalov**

Mündəricat

Ön söz

1. 26 Bakı komissarı
2. Mart soyqırımının təşkilatçısı və rəhbəri S.Şaumyan
3. Məşədi Əzizbəyov (1876-1918)
4. İvan Timofeyeviç Fioletov (1884-1918)
5. Çaparidze Prokofi Aprasionoviç (təxəllüsü Alyoşa) (1880 - 1918)
6. Mirhəsən Seyidkazım oğlu Vəzirov (1889-1918)

Bu kitab S.Şaumyan rəhbərlik etdiyi Bakı Soveti və onun varisi olan Bakı kommunasının (25 aprel-31 iyul 1918-ci il) anti-Azərbaycan fəaliyyətindən bəhs edir.

## Ön söz

Azərbaycan tarixinin ən gərgin, ən ziddiyyətli dövrləruindən biri 1917-1918-ci illər təsadüf edir. Rusiyada baş vermiş 1917-ci ilin fevral burjua inqilabından sonra başlanan demokratik dəyişiklərə, bolşeviklərin oktyabr çevrilişi ilə son qoyuldu. Bolşeviklərin 70 ildən artıq adlandırdıqları Böyük Oktyabr Sosialist İnqilabı, lakin əslində Rusiyanın paytaxtı Peterburqda 1917-ci ilin oktyabrın 25-də baş vermiş hakimiyyət çevrilişi digər xalqlar kimi, Azərbaycan xalqının həyatında da bir sıra faciələrlə yadda qalmışdır. S.Şaumyanın başçılıq etdiyi Bakı Soveti, erməni daşnakları ilə birləşərək Azərbaycanın sərvətlərinə sahib olmaq üçün yerli xalqa qarşı cinayətlər həyata keçirdilər.

Yerli müsəlman əhaliyə qarşı 1918-ci ilin martında həyata keçirilən soyqırım nəticəsində minlərlə dinc, günahsız insanlar məhv edildi. Mart soyqırımından sonra S. Şaumyan Bakı Sovetinin cinayətlərini ört-basdır etmək üçün 25 aprel 1918-ci ildə Bakı Sovetinin əsasında Bakı Kommunasını təşkil etdi. Bakı kommunası 98 günlük fəaliyyəti (25 aprel-31 iyul 1918-ci il) anti-Azərbaycan mahiyyət daşımışdır. Bu fəaliyyətin məqsədi yerli əhalini soyqırıma məruz qoymaqla Azərbaycanın sərvətlərini sovet Rusiyasına daşımaqdan ibarət idi. Bakı Sovetinin 1918-ci ildə Bakı, Şamaxı, Quba, Naxçıvan, Qarabağ, cənubi Azərbaycan və s. ərazilərdə həyata keçirdiyi soyqırım, 1918-ci ilin iyununda Bakı Kommunası tərəfindən Nəvahi, Hacıqabul, Kürdəmir ərazisində davam etdirilmişdir.

Bakı kommunası dövründə Azərbaycan sərvətlərinin talanaraq Rusiyaya daşınması gündən-günə artmışdır. Bütövlükdə 1918-ci ilin aprel-iyul ayları ərzində Bakı Xalq Komissarları Sovetinin zorakı tədbirləri nəticəsində Bakıdan Sovet Rusiyasına 1,3 milyon tona yaxın neft və neft məhsulları daşınmışdı.(2,s.258) Bundan başqa 1918-ci ilin may ayında Bakıda toplanmış 350 min pud pambıq ehtiyatı... Moskvaya göndərilmişdi. ( 2, s.143)

Azərbaycan Xalq Cümhuriyyəti XI sovet ordusu tərəfindən işğal olunduqdan, sovet hakimiyyəti qurulduqdan sonra Bakı Kommunasının cinayətlərini ört-basdır etmək üçün xalqa 26 Bakı Komissarı adı ilə saxta qəhrəmanlar sırınmağa başlandı. Respublika ərazisində onların adının əbədiləşdirilməsi üçün abidələr qoyuldu, yer və küçə adları verildi. Bakı Komunnasının tərkibində 10 komissar, 12 komissar vəzifəsi olduğu halda 70 il xalqı öz kökündə ayırmaq, "dostu düşmən, düşməni dost kimi" göstərmək üçün saxta "26 bakı Komissarı" əfsanəsi yaratdılar. Hətta sovet tarixşünaslığında da bunlar haqqında ziddiyyətli məlumatlar verilir. Sovet hakimiyyəti illərində xalqa təqdim olunan 26 komissarın 19 nəfərinin komissar olmadığı aşağıdakı siyahıdan aydın görmək olar:

1. Stepan Şaumyan- Qafqaz üzrə fövqəladə komissar, Bakı xalq komissarları şurasının sədri.
2. İvan Fioletov -xalq təsərrüfatı şurasının sədri.

3. Prokofi Caparidze -Bakı fəhlə, kəndli, əsgər və matroslar şurasının sədri,
4. Məşədi Əzizbəyov -Bakı quberniyasının komissarı.
5. Baqdasar Avakyan- Bakı şəhərinin komendantı.
6. Tatevos Əmirov -kovaler dəstəsinin komandiri.
7. Arsen Əmiryan - "Bakı fəhləsi" qəzetinin redaktoru.
8. Meer Basin- hərbi-inqilab komitəsinin üzvü.
9. Eyjen Berq-matros.
10. Anatoli Boqdanov- xidmətçi.
11. Solomon Boqdanov -hərbi-inqilab komitəsinin üzvü.
12. Armenak Boryan -jurnalist.
13. Mir Həsən Vəzirov-torpaq üzrə xalq komissarı.
14. İvan Qabışev - briqada komissarı.
15. Yakov Zevin -əmək üzrə xalq komissarı.
16. Mark Korqanov -hərbi-inqilab komitəsinin üzvü.
17. Qriqori Korqanov-Bakı xalq komitəsinin hərbi-dəniz işləri üzrə komissarı.
18. Aram Kostandyan-ərzaq üzrə xalq komissarının müavini.
19. İvan Malıqin-Qafqaz ordusunun hərbi-inqilab komitəsinin sədri.
20. İrakli Metaksa -Şaumyanın şəxsi cangüdəni.
21. İsay Mişne -hərbi-inqilab komitəsinin işçisi.
22. İvan Nokolayşvili -Caparidzenin şəxsi cangüdəni.
23. Suren Osepyan- "Bakı şurasının xəbərləri" qəzetinin redaktoru.
24. Qriqori Petrov-Bakı şəhərinin mərkəzi hərbi hakimiyyətinin sədri, qırmızı dəstənin komandiri.
25. ladimir Poluxin -hərbi-dəniz işləri üzrə komissar.
26. Fyodr Solntsev - hərbi işçi.

Bakı Komunnasının anti-Azərbaycan fəaliyyətinə aid müəllifin müxtəlif dövrlərdə bir sıra məqalələri nəşr olunub. (9,10,11,12,13,17)

XX əsrin sonlarında başlanan Azərbaycan milli-azadlıq hərəkatının təsiri ilə 1989-cu ildən başlayaraq sovet dövründə xalqa düşmən olan şəxslərin əbədiləşdirilməsi üçün verilmiş adların dəyişidirilməsi prosesi başlamış və 2010-cu ilə qədər bu proses davam etmişdir. 05 yanvar 1990-cı ildə Bakı şəhərinin Şaumyan rayonu Xətai rayonu, 18 aprel 1990-cı ildə Bakı şəhərinin Orconikidze rayonu Suraxanı rayonu adlandırıldı. 05 fevral 1991-ci ildə Azərbaycan SSR-in adı dəyişdirilərək Azərbaycan Respublikası adlandırıldı.

26 noyabr 1991-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edildi. Bunun nəticəsində DQMV-nin tərkibində olan Əsgəran və Hadrut rayonları ləğv edilərək, ərazisi Əsgəran rayonuna verilməklə, mərkəzi Xocalı şəhəri olmaqla Xocalı rayonu yaradıldı. Stepanakert şəhərinin, habelə Mardakert və Martuni rayonlarının və onların mərkəzlərinin tarixi adları bərpa edilərək, müvafiq olaraq Xankəndi, Ağdərə və Xocavənd adlandırıldı.

29 aprel 1992-ci ildə Bakı şəhərinin Kirov, Lenin, 26 Bakı komissarları və Oktyabr rayonu müvafiq olaraq Binəqədi, Sabunçu, Səbail və Yasamal rayonu adlandırıldı. 07 may 2010-cu ildə Bakı şəhərinin Əzizbəyov rayonu Xəzər rayonu adlandırıldı. (3,s.5.)

İnzibati ərazi vahidlərinin adlarının dəyişdirilməsi ilə yanaşı sovet dövrü heykəllərinin, xatirə komplekslərinin ləğvi və metro adlarının da dəyişdirilməsi prosesi baş vermişdi. 1991-2008-ci illərdə Bakıda sovet dövründə qoyulmuş 50-yə yaxın heykəl götürülmüşdür. (21,12 aprel 2008)

Bu prosesi şərti olaraq aşağıdakı mərhələlərə bölmək olar:

- **I mərhələ-1989-2005-ci illər.** Bu mərhələdə Azərbaycan xalqının müstəqilliyinə düşmən olmuş, yerli xalqa qarşı soyqırım və digər cinayətlərə rəhbərlik etmiş V.İ.Leninin, S.Şaumyanın, S.M.Kirovun və digər bolşevik rəhbərlərin abidələri, işğalçı XI Qızıl Ordunun "şərəfinə" ucaldılmış abidə söküldü, Azərbaycan xalqına düşmən olmuş 26 Bakı komissarlarına aid heykəllər, xatirə kompleksləri ləğv edildi. XI ordunun işğal günü münasibətilə metro stansiyasına qoyulmuş "28 aprel" adı dəyişdirilərək Azərbaycan Xalq Cümhuriyyətinin yaranma günü şərəfinə "28 may", "26 Bakı komissarı" adını daşıyan metro stansiyası və bağı "Sahil", "XI qızıl ordu" adlanan metro stansiyası isə "20 yanvar" adlandırıldı.
- **II mərhələ-2005-2010.** Bu mərhələdə S.Şaumyanın silahdaşları A.Çaparidze, M.Əzizbəyov, M.Məmmədyarov, Azərbaycan Xalq Cümhuriyyətinə qarşı quldurluq fəaliyyəti ilə məşğul olmuş Qatır Məmməd və digərlərinin heykəlləri götürüldü. "Sahil" bağından saxta tarixə malik 26-ların məzarı köçürüldü. Bundan başqa "Bakı soveti"metro stansiyası "İçəri şəhər", "Məşədi Əzizbəyov" metro stansiyası "Koroğlu" adlandırıldı.

Göründüyü kimi sovet adlarının dəyişdirilməsi prosesi mərhələ-mərhələ aparılmışdır. Bu proses hazırda da davam edir.

## 26 Bakı komissarı

Rusiyada baş vermiş 1917-ci ilin fevral-burjua inqilabı ilə Romanovlar sülaləsinin son nümayəndəsi çar II Nikolay taxtdan salındı və hakimiyyətə müvəqqəti hökümət keçdi. Həmin ilin oktyabrında V.İ.Lenin başçılığı ilə bolşeviklər partiyası Peterburqda  çevriliş yolu ilə hakimiyyəti ələ aldılar. 1917-ci ilin noyabrın 2-də V.İ.Lenin tərəfdarı, Azərbaycan xalqının qatı düşməni Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı soveti Bakıda hakimiyyəti ələ keçirtdi. Onların məqsədi Azərbaycanın sərvətlərini ələ keçirərək sovet Rusiyasına daşımaqdan ibarət idi. Bu dövrdə Azərbaycanda milli şüurun oyanması, müsəlman əhalinin siyasi cəhətdən təşkilatlanması onları qane etmədiyindən yerli əhaliyə qarşı 1918-ci ilin martında planlı çəkildə soyqırım həyat keçirdilər. Bolşeviklər və daşnaklar mart qırğınını törətməklə "Müsavat"ın sosial bazasını, şəhərin müsəlman əhalisini məhv etməyi planlaşdırmışdılar. Bu məqsədlə təxminən 5 min erməni əsgəri müxtəlif cəbhələrdən Bakıya gətirilmişdi. "Qırmızı qvardiya" adı ilə yaradılan 10-12 minlik ordunun da 70 faizi erməni idi (1, s.247)

Bolşevik-daşnak qüvvələrinin 1918-ci ilin martında müsəlman əhaliyə qarşı törətdikləri soyqırımda həlak olanların sayı ilə bağlı müxtəlif fikirlər mövcuddur.Britaniya briqada generalı R.Qortonun 8 dekabr 1918-ci il Londona göndərdiyi sənəddə 20 min, R.Mustafazadənin kitabında 20 min, A.Balayevin kitabında 30 min, Fövqəladə İstintaq Komissiyasının sənədlərində 30 min, Azərbaycan Respublikası Milli Məclisinin nəşr etdiyi kitabda isə 50 mindən çox müsəlmanın 1918-ci ildə soyqırıma məruz qaldığı göstərilir.(14,s.28)

Lakin faktlar sübut edir ki, gələcəkdə tədqiqatlar davam etdirilməklə daha çox insanın soyqırıma məruz qaldığını üzə çıxartmaq olar.

Sovet tarixşünaslığında Bakı kommunası haqqında obyektiv məlumatlara rast gəlmək mümkün olmadığına görə əsas diqqəti akademik Ziya Bünyadovun XX əsrin axırlarında nərş olunmuş məqalələrinə və bu işi hazırda davam etdirən tarixçilərin yazılarına vermək lazımdır.  Bu yazılarda Bakı kommunası haqqında 70 il yazılmış saxtakarlıq alt-üst edilmişdi.

97 gün mövcud olmuş (25 aprel-31 iyul 1918) Bakı kommunasının saxta tarixini danılmaz faktlarla ilk dəfə akademik Ziya Bünyadov "Azərbaycan" qəzetinin 6 noyabr 1989-cu il tarixli sayında rus dilində dərc olunmuş  "Əfsanə və əfsanə yaradanlar" adlı məqaləsi ilə ifşa etmişdir. Bu məqalə dərc olunandan sonra əhali başa düşməyə başladı ki, uzun illər Azərbaycan xalqına qəhrəman kimi təqdim olunan komissarlar xalqın qatı düşmənləri imiş.  Bu məqalənin nəşrinə yuxarılar icazə verməsələr də  yüzlərlə insanın "Azərnəşrin" qaşısında keçirdiyi etiraz aksiyası nəticəsində məqalə işıq üzü gördü.

Bundan sonra Z.Bünyadov "Bir daha uydurma 26 rəqəmi haqqında" (30,10 aprel 1992), "Bir qədər Bakı və Bakı komissarları haqqında"(30,15 noyabr 1990), və digər yazılarında Bakı kommunası haqqında 70 il yazılmış saxtakarlığı alt üst etdi. Akademik Bakı Kommunası haqqında tədqiqatları ilə sübut etmişdir ki, bu qurum sovet Rusiyasının mənafeyinə xidmət edərək Azərbaycan xalqına, onun müstəqil dövlətçiliyinə düşmən olmuşdur. Sovet hakimiyyəti illərində 26 rəqəmi və komissarlar barədə saxta tarixi əfsanələr yaradılaraq xalqın beyninə yeridilmişdir. Z.Bünyadov sübut etmişdir ki, ümumiyyətlə Bakıda 26 komissar olmayıb. Kommunada cəmi 12 komissar, 14 komissar vəzifəsi olub ki, bunlardan da Kolesnikova, Zarqarov, Nərimanov, Sibulski, Kireyev, Markaryan, Karinyan 1918-ci il 20 senytabrında güllələnmələri etimal olunan 26-lar arasında olmamışdır. Akademik hətta göstərmişdir ki, komissarların güllələnməsi haqqında fikirlər də yanlışdır. Şamuyan və digər komissarlar ingilislər tərəfindən Krasnovodskdan Hindistana aparılmışlar.

26 rəqəmi saxta olduğundan sovet tarixşünaslığında əsasən 4 komissar, erməni S.Şaumyan, rus İ.Fialetov, gürcü P.Çaparidze, azərbaycanlı M.Əzizbəyov kimi beynəlmiləl bir tərkib daim təbliğ olunmuş, bununla da Bakı sovetinin cinayətlərini ört-basdır etməyə çalışmışlar. Lakin bəzi sovet dövrü kitablarında 26-ların tam siyashısı verilsə də bunların 19 nəfərinin komissar olmadığı aydın görünür. Məsələn, bu siyahıda S.Şaumyanın şəxsi mühafizəçisi İrakli Panaitoviç Metaksa, P.Çaparidzenin şəxsi mühafizəçisi İvan Mixayloviç Nikilayşvili, "Bakinski raboçiy" qəzetinin redaktoru, Arsen Əmiryan və onun qardaşı minlərlə dinc müsəlman əhalinin qırğınına rəhbərlik etmiş, cinayətkar daşnak Tatevos Əmiryan, "İsvestiya Bakinskoqo Soveta" qəzetinin redaktoru Suren Osipyan, jurnalist Armenak Boryan, qulluqçu Anatoli Boqdanov və başqaları komissar olmasalar da onların adı 26 Bakı komissarlarının sıyahısındadır.

26 komissarın sırasında yer almış Tatevos Əmiryan mart qırğınlarındakı cinayətləri ilə yanaşı 01-12 iyun 1918-ci il tarixlərində Hacıqabul-Kürdəmir, Göyçay ərazilərində də qatı cinayətlər törədib. Onun rəhbərlik etdiyi daşnak terror qrupları bu ərazilərdə yeddi min əliyalın, təhlükəsiz, dinc sakini qətlə yetirmişdi.

Maraqlı cəhət burasıdır ki, sovet tarixşünaslığını dərindən araşdırarkən hətta burada da komissarların 12 nəfər olması haqqında məlumata rast gəlmək olur. Məsələn, sovet rejiminə qarşı baş vermiş Gəncə üsyanı zamanı 12 min soydaşımızın məhv edilməsinə rəhbərlik etmiş (19,s.56) Həmid Sultanov "Oktyabr Azərbaycanda" adlı xatirələrində yazmışdı:"Xalq Komissarları Soveti 12 komissardan ibarət idi:1) xarici işlər üzrə Stepan Şaumyan, o həmçinin Xalq Komissarları Sovetinin sədri idi, (kommunist) 2) daxili işlər üzrə Alyoşa Çaparidze (kommunist), onun müavini -Məşədi Əzizbəyov (kommunist);3) ərazaq üzrə-İvan Tsibulcki (eser); 4) şəhər təsərrüfatı Nəriman Nərimanov (kommunist); 5) torpaq üzrə-Mirhəsən Vəzirov (eser); 6) hərbi işlər üzrə Korqanov (kommunist); 7) maliyyə işləri üzrə-Kiriyev (eser); 8) xalq maarifi üzrə-N.N.Kolesnikova (kommunist); 10) dəniz işləri üzrə-Markaryan (kommunist); 11) maliyyə işləri üzrə-Karinyan (kommunist);12) xalq əmək komissarı-Y.Zevin (kommunist).(8,s.30)

Siyahıya diqqətlə baxdıqda 8-dən sonra 10 rəqəminin gəlməsi bir daha sübut edir ki, Məşədi Əzizbəyov komissar olmayıb. Deməli müstəqillik dövrünün

tarixşünaslığı ilə yanaşı, sovet tarixşünaslığındakı bəzi faktlar da bunu təsdiq edir. Amma sonradan sovet təbliğat maşınına lazım olduğundan M.Əzizbəyov kitablarda adları çəkilən 4 əsas komissardan biri kimi göstərilib. Qəribə burasındadır ki, 3-cildlik "Azərbaycan tarixi"nin birinci cildində verilmiş siyahıda cəmi 10 komissarın adı var. Buradakı siyahıda Markaryan, Kiriyev, Əzizbəyov yoxdur, lakin sol eser İ.Suxartsevin adı qeyd olunub. (2,s.131) Göründüyü kimi Bakı kommunasının tarixi o dərəcədə saxtalaşdırılıb ki, hətta sovet dövründə yazılmış kitablarda verilmiş siyahılar belə bir-birindən fərqlənir. Sovet tarixşünaslığının tədqiqatı da komissarların sayının 26 olmadığını sübut edir.

Prof.E.İsmayılov S.Şamuyan və digər komissarların Hindistana aparılması fikrini qəbul etməsə də, M.Əzizbəyovun komissar olmaması fikrini müdafiə edir. Onun fikrincə onların güllələnməsi ingilislərə deyil, ağqvardiyaçılara, eserlərə və hətta hakimiyyət nərdivanında onları özlərinə rəqib hesab edən bolşevik rəhbərlərə lazım idi. (19)

Sovet dövründə Azərbaycanla yanaşı SSRİ-nin bir sıra şəhər və rayonlarında 26 Bakı komissarlarının adını əbələşdirmək üçün onların adına küçələr, prospektlər və s. verilmişdir. O dövrdə Ermənistanda hətta bu ada da qısqanclıla yanaşaraq, həmin addan Bakı sözünü çıxaraq hər yerdə "26 komissar" adı yazırdılar. Sovet dövrüdə ermənilərin Azərbaycan xalqına düşmən olmuş bir Bakı Kommunasının təbliğində iştirak etməklə yanaşı, bolşevik-daşnak ideyalarına xidmət etmiş bir qurumun adında Bakı sözünə qısqanclıqla yanaşmaları, onların necə məkirli və cılız olduqlarını bir daha sübut edir.

26 Bakı komissarı haqqında obyektiv həqiqətləri üzə çıxarmaq, Azərbaycan tarixinin bu səhifələrini ağ və qara ləkələrdən təmizləmək üçün tədqiqatların davam etdirilməsinə ciddi ehtiyac var.

## Mart soyqırımının təşkilatçısı və rəhbəri S.Şaumyan

Stepan Şaumyan Bakı sovetinin sədri, müsəlman əhaliyə qarşı 1918-ci ilin mart ayında törədilmiş soyqırımın təşkilatçısı və rəhbəri olub. "Bakı soveti"nin varisi olan "Bakı Kommunası"nın (25 aprel-31 iyul 1918-ci il) rəhbəri kimi Azərbaycan xalqına və Azərbaycanın müstəqilliyinə qarşı qatı düşmən münasibət bəsləmişdi. O, nəinki Azərbaycan xalqının öz müqəddəratını təyin etmək hüququnu, hətta "Azərbaycan" sözünü belə qəbul etmirdi. Əmiryanın redaktoru olduğu "Bakinski raboçi" qəzeti bu sözü məsxərəyə qoymaqdan belə çəkinmirdi. (4,№ 11, mart 1993) "Bakı Kommunası"nın rəhbəri kimi Azərbaycan Xalq Cümhuriyyətini məhv etmək, ölkə sərvətlərinə tam sahib çıxmaq üçün Gəncə üzərinə hücumun təşkilatçısı olmuş, 1918-ci ilin iyun-iyul aylarında Hacıqabul-Kürdəmir-Göyçay istiqamətində dinc müsəlman əhaliyə qarşı təkrar soyqırım həyata keçiririlməsinə rəhbərlik etmişdir. O, həbs edilərkən Quba və ətraf rayonların ərazisindən talanmış 32 kq qızıl onun əşyalarının içindən çıxmışdı.

Xilaskar Qafqaz İslam Ordusu və Azərbaycan Milli Ordusunun qəhrəmanlığı sayəsində 1918-ci il sentyabrın 15-də Bakı düşməndən azad olunarkən Bakının Bayıl həbsxanasından qaçırılaraq Krasnovodska (hazırda Tükmənbaşı) aparılan S.Şaumyan və onun tərəfdarlarının 1918-ci il sentyabrın 20-də Türkmənstanın Ağcaqum çölündə Sentro-kaspi diktaturası və ingilislər tərəfindən güllələndiyi ehtimal olunur. Lakin tarixçilərin araşdırmaları nəticəsində S.Şaumyanın 1918-ci ilin sentyabrın 20-də güllənmədiyi, ingilislər tərəfindən Hindistana aparıldığı və ömrünün axırına qədər orada yaşadığı haqda faktlar üzə çıxarılmışdır.

## İvan Timofeyeviç Fioletov

**(1884-1918)**

Bakı kommunasında xalq təsərrüfatı üzrə komissar olub. Partiya təxəllüsü Vaneçka. Rusiyada kəndli ailəsində doğulub. Atası haqqında məlumatı olmayıb, ögey atası himayə edib. 1890-cı ildə ailəsi işləmək üçün Bakıya köçüb. Neft sənayesinin milliləşdirilməsinə və Azərbaycan sərvətlərinin Rusiyaya daşınmasına rəhbərlik edib. Bakı kommunasının Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərə görə məsuliyyət daşıyan bolşevik rəhbərlərdən biridir. 1918-ci il sentyabrın 20-də Türkmənstanın Ağcaqum çölündə Sentro-kaspi diktaturası və ingilislər tərəfindən güllələndiyi etimal olunur.

Sovet dövründə Bakı şəhərində onun adının verilmiş küçə hazırda Abdülkərim Əlizadənin adını daşıyır. Sovet dövründə akademik P.Əzizbəyovanın onun haqqında rus dilində kitabı nəşr olunub.(16)

**Məşədi Əzizbəyov**
**(1876-1918)**

Mühəndis, ictimai xadim, inqilabçı olan Məşədi Əzizbəyov 1876-cı ildə Bakıda anadan olmuşdur. 1896-cı ildə Bakı realnı məktəbini bitirdikdən sonra Peterburq Texnologiya institutuna daxil olmuş və 1908-ci ildə oranı bitirmişdir. Bakıya qayıtdıqdan sonra az müddətdə mühəndisliklə məşğul olmuşdur. Sonra inqilabi hərəkata qoşulmuş, peşəkar inqilabçı kimi fəaliyyət göstərmişdir. Bakı fəhlələrinin çarizmə qarşı çıxışlarında yaxından iştirak etmişdir. "Nicat" maarif cəmiyyətinin fəal üzvlərindən biri olmuşdur. "Dəvət Qoç" qəzetinin yaradılmasında yaxından iştirak etmişdir. 1911-ci ildə Bakı Şəhər Dumasına üzv seçilmişdir. 1918-ci ildə Bakı Xalq Komissarları Sovetində quberniya komissarı, sonra xalq daxili işləri komissarının müavini işləmişdir. 1918-ci ildə 20 sentyabrda Bakı Komissarları sırasında güllələnmişdir.

Onun haqqında P.Əzizbəyova, M. Qazıyev və b. müəlliflər bir sıra kitablar yazıblar (5,6,7)

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra baş vermiş ictimai-siyasi proseslər Stepan Şaumyanın cinayətlərini ifşa etməyə imkan versə də, Alyoşa Caparidze, Məşədi Əzizbəyov, Mirhəsən Vəzirov və başqalarının fəaliyyətinə obyektiv qiymət verilməsinə bir müddət mane olmuşdur.Onların fəaliyyətinə gec obyektiv qiymət verilməsi Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il mart tarixli fərmanı ilə də uyğunsuzluq təşkil etmişdi.

Fikrimizcə 1918-ci ilin mart qırğınından 25 gün sonra S.Şaumyanın rəhbərliyi ilə yaradılmış Bakı kommunasına daxil olan, Bakını Azərbaycandan ayırıb Rusiyaya birləşdirmək siyasəti yeridən, Azərbaycan xalqına və ümumiyyətlə müsəlman əhaliyə düşmən olan bir qurumun rəhbərliyində təmsil olunan azərbaycanlı komissarların fəaliyyətinə dolayısı ilə haqq qazandırmağın özü də tarixi saxtalaşdırmaqdan başqa bir şey deyildir.

Gürcüstanda sovet rejiminin ləğvindən sonra kommunanın adını daşıyan metro stansiyasının adı dəyişdirilmiş, M.Əzizbəyovun büstü götürülmüşdür. Ermənistanda M.Əzizbəyovun adını daşıyan rayonun adı dəyişdirilmişdir. Bakıda isə M.Əzizbəyovun adını daşıyan rayon, prospekt, metro stansiyası və abidələr 2010-cu ilə qədər qalmışdır.

"Kommunist" qəzetinin 6 iyun 1989-cu il tarixli sayında 9 aparıcı alimin iştirakı ilə "1918-1920-ci illər dövrünün bəzi məsələləri" mövzusunda keçirilmiş "Dəyirmi masa"nın materialları verilmişdi. Burada alimlər M.Əzizbəyovun 1918-ci ilin may ayında, yəni mart qırğınından az sonra dediyi fikirlərə haqq qazandırmağa çalışmışlar. M.Əzizbəyov demişdir: "O, zaman biz böyük səhv etdik. Amma müsəlman kəndliləri bağışlayıb deyirlər ki, Sovet hakimiyyətinin ardınca getməyə hazırdırlar və onu gözləyirlər."

M.Əzizbəyovun bu fikirləri erməni daşnaklara və bolşeviklərə canı-dildən xidmət göstərməsindən və mart qırğınında həlak olmuş minlərlə soydaşımızın ruhuna

hörmətsizlikdən başqa bir şey deyildir. Onun bu fikrinin başdan ayağa saxta olması açıq aydın görünür:

- Birincisi hələ bu gün də mart qırğınının yaralarının sağalmadığı halda qırğından 2 ay keçməmiş müsəlman əhali bunu necə bolşevik və erməni daşnaklara bağışlaya bilərdi?
- İkincisi Zaqafqaziya Seyminin mövcud olduğu və may ayının 28-də şərqdə ilk Demokratik Respulikanın, Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı, əhalinin mütləq əksəriyyətinin onu dəstəklədiyi bir vaxtda müsəlman əhali erməni-daşnaklardan ibarət olan bir qurumun ardınca necə getməyə hazır ola bilərdilər?

Deməli buradan belə nəticə çıxarmaq olar ki, M.Əzizbəyov mart qırğınından sonra Bakı kommunasına daxil olmaqla öz xalqına deyil, xalqının düşmənlərinə cani-dildən xidmət etmişdir. Bundan başqa o, mart qırğınında səhv etdiklərini deməklə həmin qırğınlarda düşmən tərəfdən çıxış etdiyini də dolayı yolla etiraf etmişdir.

1918-ci il iyunun 10-da Bakı soveti qoşunlarının Gəncə üzərinə yürüşündə M.Əzizbəyovun böyük canfəşanlıqla iştirak etməsi, həmin ayın 12-də Kürdəmirin işğal olunmasında və Göyçay üzərinə hücumun təşkilində mühüm rol oynaması onun öz xalqına düşmən mövqeyindən xəbər verir. Göyçay istiqamətində iyunun 27-si ilə iyulun 1-i arasında dörd günlük gərgin vuruşmada Milli Ordu ilə qardaş Türk ordusunun qələbəsi düşmənin Gəncə üzərinə hücumunu dayandırdı və digərləri kimi, M. Əzizbəyovun da planlarını pozdu.

Sovet taixşünaslığında M.Əzizbəyovun fəaliyyəti önə çəkilərək onun səyləri nəticəsində qısa müddətdə Abşeronun 17 kəndində sovet hakimiyyəti bərqərar olunduğu bildirilir. Bundan başqa qeyd olunur ki, M.Əzizbəyovun səyləri nəticəsində 30 kəndin 38,5 min əhalisini təmsil edən 77 nümayəndənin iştirakı ilə 26 may 1918-ci il tarixdə Bakı qəzasının kəndli sovetlərinin qurultayı keçirilmişdir. Qurultay M.Əzizbəyovu Bakı qəzası kəndli sovetləri deputatlarının İcraiyyə Komitəsinin sədri seçmişdir. M.Əzizbəyov həmin qurultayda qeyd edirdi ki, “müsəlman kəndliləri...Sovet hakimiyyətinin ardınca getməyə hazırdırlar. (2,s.137) Nəzərə almaq lazımdır ki, həmin gün Tiflisdə Zaqafqaziya seyminin son iclası keçirilmiş və səhəri gün M.Ə.Rəsulzadənin rəhbərliyi ilə Milli Şura yaradılmış və mayın 28-də İstiqlal bəyannaməsi qəbul edilərək Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı elan olunmuşdu. Deməli M.Əzizbəyov Azərbaycan Xalq Cümhuriyyətinə qatı düşmən kimi erməni daşnaklarla birlikdə Azərbaycanın müstəqilliyinə qarşı mübarizənin əsas təşkilatçılarından biri olmuşdur. 1918-ci il sentyabrın 20-də Türkmənstanın Ağcaqum çölündə Sentro-kaspi diktaturası və ingilislər tərəfindən güllələndiyi ehtimal olunur.

Maraqlı burasındadır ki, sovet dövründə təbliğ olunan M.Əzizbəyovun toxunulmaz hesab olunan ailəsinə münasibət birmənalı olmamışdı. 1933-1953-cü illərdə Azərbaycana rəhbərlik etmiş M.C.Bağırovun fəaliyyəti dövründə 1948-ci ildə SSRİ dövlət nəzarəti nazirliyi, 26 Bakı komissarlarından biri olmuş Məşədi Əzizbəyovun oğlu Əzizağa Əzizbəyovun öz vəsifə səlahiyyətlərindən sui-istifadə etməsi, Abşeron yarımadasında 7 hektar kolxoz torpağını mənimsəyərək Bakının

Şüvəlan kəndindəki bağına birləşdirməsi haqqında faktı aşkara çıxarmışdı. Bundan başqa müəyyən edilmişdir ki, Ə.Əzizbəyov həmin ərazidə meyvə-tərəvəz yetişdirib, satdıraraq böyük gəlir əldə etmiş, dövlət hesabına böyük ev və hövuz tikdirmişdi. Məhz buna görə Ə.Əzizbəyov nəinki işdən çıxarılmış, hətta kommunist partiyası sıralarından qovulmuşdu. (15, s.223;18,s.131)

Lakin M.C.Bağırovun həbsindən sonra Məşədi Əzizbəyovun oğluna münasibət dəyişmişdir.

Sonda onu da qeyd etmək istəyirik ki, M.Əzizbəyov və kommunaya daxil olmuş digər azərbaycanlılar seçidikləri yanlış siyasi xəttin, dövrünün ziddiyyətlərinin qurbanı olmuşlar. Kommunist rejiminin qurbanları olmuş bir çox şəxslər kimi M.Əzizbəyovun və digər şəxslərin fəaliyyətinə haqq qazandırmaqdan uzaq olmalı və bu şəxslərin buraxdığı səhvlərin gələcəkdə təkrarlanmaması üçün onların fəaliyyətləri obyektiv şəkildə öyrənilməlidir.

**Çaparidze Prokofi Aprasionoviç ( təxəllüsü Alyoşa)**
**(1880 - 1918)**

P.A.Çaparidze 15 yanvar 1880-ci ildə Kutaisi quberniyasının Raça qəzasının Şardometi kəndində anadan olub. 1898-ci ildə kommunist partiyasına qəbul edilib.

Onun Bakıda yenidən fəaliyyəti 1917-ci ilin aprelindən RSD(b)P Bakı Komitəsinin və Bakı Sovetinin tərkibinə daxil olmaqla başlamyıb. O, 1917-ci il sentyabr ümumi tətilinə rəhbərlik edən tətil komitəsinin sədri olub.

P.Caparidzenin Azərbaycan xalqına qarşı əsas cinayətləri məhz 1917-ci ilin dekabrından Bakı Soveti İcraiyyə Komitəsi sədrinin müavini, 1918-ci ilin yanvarından sədri olduqdan sonra baş verib. P.Caparidzenin 1918-ci ilin mart qırğınları zamanı yerli müsəlman əhaliyə qarşı genosidin təşkilatçılarından və icraçılarından biri olması çağdaş Azərbaycan tarixşünaslığında faktlarla sübut olunub.

P.Caparidze 1918-ci ilin 25 aprelində S.Şaumyanın sədrliyi ilə yaranmış Bakı kommunasında daxili işlər və ərzaq komissarı olub. O, yerli əhalidən ərzaq və digər kənd təsərüfatı məhsullarının müsadirə edilməsinə və buna qarşı çıxanların kütləvi surətdə qətlə yetirilməsinə bilavasitə rəhbərlik etməsini faktlar sübut edir .

P.Caparidze 1918-ci ilin may ayında keçirilmiş Bakı qəza kəndli deputatları Sovetinin I qurultayının təşkilatçılarından və rəhbələrindən biri olub. O, Azərbaycan Xalq Cümhuriyyətinə düşmən münasibət bəsləmiş və milli ordu və qardaş türk ordusuna qarşı qanlı döyüşlərə bilavasitə rəhbərlik etmişdir. Bakıda, Şamaxıda, Kürdəmirdə, Hacıqabulda, Göyçayda və Respublikanın digər ərazilərində gedən döyüşlərdə şəhid olmuş azərbaycan və türk əsgərlərinin ölümündə bilavasitə onun əli var.

P.Çaparidzenin fəaliyyətinin geniş araşdırılmasına ehtiyac var və bu sahədə sovet tarixşünüslığı mühüm əhəmiyyət kəsb edir. Onun haqqında Ə.Quliyevin 1957 və 1979-cu llərdə, A Hüsenovun 1984-cü ildə Bakıda azərbaycan və rus dillərində, Q. Qəribcanyanın 1979-cu ildə Yerevanda erməni dilində, E. Zedqinidzenin 1976-cı ildə Moskvada rus dilində, M. Silaqadzenin 1980-ci ildə Tbilisidə gürcü dilində kitabları nəşr olunub. 1979-cu ildə “Yoldaş Alyoşa ” qısametrajlı sənədli film də çəkilib.

Sovet tarixşünaslığında P.Çaparidze haqqında yazılanlara bir qədər tənqidi münasibət bəsləmək kifayətdir ki, onun yerli müsəlman əhaliyə qarşı cinayətlərini üzə çıxarmaq mümkün olsun. Məsələn, sovet dövründə yazılmış kitablarda yazılır ki, “ müsavat əksinqilabına qarşı mübarizəyə rəhbərlik etməkdən ötrü, martın 30- dan 31-nə keçən gecə P.Caparidze, Q.Korqanov, İ.Suxartsev, S.Şaumyandan ibarət Bakı və onun rayonlarının İnqilabi Müdafiə Komitəsi təşkil edildi... Bu komitənin çağrışı ilə martın 31-də sovet qoşunları topların, təyyarələrin və donanmanın köməkliyi ilə düşmən üzərinə qəti hücuma keçdilər...1918 - ci il aprelin 6-da iri müəssisə sahiblərinin üzərinə 50 milyon manat məbləğində vergi qoyuldu. Kapitalistlər tələb olunan məbləği ödəməkdən boyun qaçırdıqda, komitə onları həbs etməyi əmr etdi. Bundan sonra istənilən məbləğ ödənildi.” (2,s.119-122)

Yaddan çıxarmaq lazım deyildir ki, A.Çaparidze xalqımıza qarşı çinayətlərə S.Şaumyanla birlikdə rəhbərlik etmişdir. O, 1918-ci ilin yanvarından Bakı Soveti

İcraiyyə Komitəsinin sədri olduğundan mart qırğınlarında günahsız dinc müsəlman əhaliyə qarşı törədilmiş cinayətlərə görə məsuliyyət daşıyanlardan biridir.

**Mirhəsən Seyidkazım oğlu Vəzirov**
**(1889-1918)**

1889-cu ildə Şuşa şəhərində anadan olub. İbtidai təhsilini atasından alıb. Sonra Şuşa realnı məktəbdə oxuyub, 1907-ci ildə Bakı realnı məktəbinə dəyişilib. Bir müddət burada oxuduqdan sonra Novaçerkassk Politexnik İnstitutunun kimya fakültəsinə daxil olub. Maddi problemlər və xəstəliyi üzündən politexnik institutunu bitirə bilmədiyindən 1915-ci ildə Kiyev Ticarət İnstitutuna qəbul olunub. Bir neçə ay burada oxuyandan sonra Bakıya qayıdıb və müəllimliklə məşğul olub.

M.Vəzirovun üzv olduğu eser partiyası (sosialist revolyusionerler partiyası, qısa SR) 1917-ci il fevral burjua inqilabından sonra yaradılmış Müvəqqəti hökümətdə 4 nazirlə, Aleksandr Kerenski (ədliyyə naziri, hərbi nazir, daha sonra baş nazir), Viktor Çernov (torpaq naziri), Nikolay Avksentev (daxili işlər naziri, parlamentin sədri), Semyon Maslovla (torpaq naziri) təmsil olunurdu. (20)

Sol eserlər qrupunun üzvü olan Vəzirov 1917-ci ildən bolşeviklərlə birlikdə işləyib. 1917-ci il iyulun 14-də Bakı müsəlman ictimai və siyasi təşşkilatları icraiyyə komitəsinin katibi seçilib. M.Vəzirov 1917-ci il noyabrın 2-də Bakı Sovetinin yeni icraiyyə komitəsinə üzv, Bakı qəza kəndli deputatları Sovetinin 1918-ci ilin mayında keçirilən birinci qurultayında İcraiyyə Komitəsi sədrinin müavini seçilib. O,1918-ci ilin mayından Bakı Xalq Komissarları Sovetinin xalq torpaq komissarı idi. M.Vəzirov Bakı Xalq Komissarları Sovetinin torpaq haqqında dekretini imzalamış, dekretin həyata keçirilməsində, qəzalarda kəndli qurultaylarının təşkilində fəal iştirak edib. Mirhəsən Vəzirov 1918-ci ildə Bakı komissarları ilə birlikdə ingilislər tərəfindən güllələndiyi etimal olunur.

Eserlər partiyasının VIII qurultayı (7-16 may 1918-ci il) bolşevik diktaturasının ləğv edilməsinin demokratiyanın növbəti və təxirəsalınmaz vəzifəsi hesab etdi. 1918-ci ilin iyulunda Moskvada sol eserlərin üsyanı baş verdi. 30 avqust 1918-ci ildə Moskvada eser qadın Fanni Kaplan tərəfindən bolşeviklərin rəhbəri V.İ.Leninlə sui-qəsd edildi. Həmin gün Pertoqradda Leonid Kanneqiser tərəfindən Petroqrad Fövqəladə Komissarlığın rəhbəri Moisey Uritski öldürüldü. (20) Bundan sonra eserlərə qarşı qırmızı terror başlandı. M.Vəzirov Bakı Kommunasında torpaq üzrə xalq komissarı olmasına baxmayaraq yuxarıda qeyd olunan səbəblərdən bolşeviklər eserlərə düşmən münasibət bəslədiyindən onun adı sovet hakimiyyəti illərində təbliğ olunmayıb.

## İstifadə olunmuş ədəbiyyat
## ------------------------------

### Azərbaycan dilində

1. 2.Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər).Bakı. "Elm". 2008. 696 səh. + 40 səh. illüstrasiya
2. 3.Azərbaycan tarixi. 3 cilddə. 3-cü cild, 1-ci hissə, Bakı 1973, 548 s.
3. 4.Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi PREZİDENT KİTABXANASI İnzibati-ərazi vahidləri.Bakı 2016., s.5.
4. 6. "Azərbaycan" qəzeti
5. Əzizbəyova P. Məşədi Əzizbəyov. Gənclik, Bakı, 1955. S. 78
6. Qazıyev M. Məşədi Əzizbəyov (bioqr. oçerk.) Azərnəşr, Bakı, 1966. S. 112
7. Qazıyev M. Məşədi Əzizbəyov.Həyat və fəaliyyəti.Gənclik,Bakı,1976.S.128
8. Sovet hakimiyyəti uğrunda. Bakı, Azərnəşr, 1967, 259 s.
9. Zülfüqarlı M.P. Bakı kommunasının saxta tarixi. Bakını Azərbaycana qarşı qoyanlar (tarix və müasirlik) "Millət" qəz., 25 aprel 1998

10.Zülfüqarlı M.P. Çaparidze Prokofi Aprasionoviç (təxəllüsü Alyoşa) (1880 -1918) . "Ədalət" qəz., 03 noyabr 2004

11.Zülfüqarlı M.P. M. Əzizbəyovun xalq əleyhinə fəaliyyətinə aid yeni faktlar. "Ədalət" qəz., 06 oktyabr 2004, salaminfo.az 29 fevral 2010

12.Zülfüqarlı M.P. Saxta 26 rəqəmi haqqında əfsanə. "Savaş" qəz. 30.04.2006

13. Zülfüqarlı M.P. Tariximiz daha bir saxtakarlaşdırılmış səhifəsi- Bakı kommunası. "Salam" qəz., 05.05.2007

14.Zülfüqarlı M.P. ŞAMAXI SOYQIRIMI 1918. SHAMAKHI GENOCIDE. Bakı-2011,78 s.

15. Zülfüqarlı M.P. Azərbaycan Tarixi. Tarixşünaslıq. (1920-1991-ci illər) DƏRSLİK. BAKI-2017

### Rus dilində

16.Азизбекова. П. А. Иван Фиолетов: биографический очерк. -Баку:Азербайджанское гос. изд-во, 1984.-211 с.

17.Зулфугарлы М.П. Фальшивая история Бакинской Коммуны: историографический анализ «Научная дискуссия: вопросы социологии, политологии, философии, истории»: материалы XV международной заочной научно-практической конференции. (02 июля 2013 г.) -Москва: Изд. "Международный центр науки и образования", 2013.- 134 с. s.58-62

18.Исмаилов Е. Р. Власть и народ. Послевоенний сталинизм в Азербайджане.1945-1953. Баку,«Адилоглы»,2003,344 с.

19.Исмайлов Е.Р.: “Среди 26-ти было всего 8 комиссаров…”
20.Суслов А. Ю. Социалисты-революционеры в Советской России: источники и историография / А. Ю. Суслов. — Казань: Изд-во Казан. гос. технол. ун-та, 2007.
21. http://www.trend.az